# Novruz inancları təhlil müstəvisində




Filologiya üzrə fəlsəfə doktoru Sevinc Qasımova "Azərbaycanda Novruz ənənə və inancları" monoqrafiyasından sonra "Novruz inanc mətnləri və onların poetikası" ("Elm və təhsil," 2020) kitabı ilə oxucuların görüşünə gəlmişdir. İki hissədən ibarət olan bu kitabın ilk hissəsində elə kitabın da adında ifadə olunduğu kimi, Azərbaycanın müxtəlif bölgələrindən toplanmış inanc mətnləri təqdim olunur.

"Novruz inanclarının ritual-mufoloji poetikası" adlanan 2-ci hissədə isə bu inanc mətnləri Novruzun fəlsəfəsini, məna və mahiyyətini özündə ehtiva etmək baxımından təhlilə cəlb olunmuşdur.

"Novruz inanclarında zaman anlayışı" adlı yarımbaşlıqda müəllif Novruz inanclarının bütöv bir sistem təşkil etdiyini göstərərək yazır ki, bizə ayrı-ayrı məsələlər, fərqli mətləblər təsiri bağışlayan inanclar vahid bir əsas ətrafında birləşərək sistem yaradır. Novruz inanclarını ümumi halda nəzərdən keçirdikdə burada da həmin inancların bağlı olduğu vahid bir əsası müşahidə etmək olur. Məlum olur ki, təzə ilin köhnə ili (yaxud təzə dünyanın köhnə dünyanı) əvəz etdiyi Novruz bayramında iki zaman üz-üzə gəlir. Bunlardan biri getməkdə olan zaman, o birisi isə gəlməkdə olan zamandır. Bunların bir-birini əvəz etməsi Novruz bayramında baş verir. Bu zaman əvəzlənməsində ən mühüm məqam ilin təhvil olunduğu zaman kəsiyidir. Həmin zaman kəsiyi ilə bağlı inanclar vardır. O inanclardan məlum olur ki, ilin təhvil olduğu məqam qeyri-adi zamandır. Bu zamanda qeyri-adi hadisələr baş verir. Həmin qeyri-adi zamanın əsas xüsusiyyəti ondan ibarətdir ki, bu, bir başlanğıc anı, qeyri-adi zaman nöqtəsidir. Bütün yeni zaman, yeni məkan və bu zaman-məkan daxilində baş verəcək hadisələr həmin zaman başlanğıcından, zaman nöqtəsindən başlanır. Bu zaman nöqtəsində baş verənlər fərqli xüsusiyyətlərə malik olur" (səh.47).

Bu minvalla Sevinc Qasımova zaman anlayışı ilə bağlı məqamları özündə əks etdirən inanc mətnlərini Novruzşünas alimlərin də yazdıqlarına isnad etməklə təhlil müstəvisinə gətirir. Daha sonra tədqiqatçı "Novruz inanclarında od, su, bitki və torpaq kultları" və "Novruz fal inancları" başlıqları altında tədqiqlərini davam etdirir, tədqiqatboyu gəldiyi ümumi qənaətlərini yekunda Nəticə hissəsində təqdim edir.

Sevinc Qasımovanın Novruz inanclarını özündə əks etdirən mətnlərin poetikasını araşdırmaya çəkdiyi bu kitab təkcə elmi baxımdan yox, həm də elə ümumxalq kütləsi tərəfindən də sadə və aydın məntiqlə yazıldığı üçün maraqla və sevilə-sevilə oxunulacaqdır. Məncə, bütün xalq tərəfindən ilin əziz bayramı kimi sevilən və təntənə ilə keçirilən Novruz bayramı haqqında yazılanlar da elə hamı tərəfindən anlaşılan bir üslubda olmalıdır.

Şakir Əlifoğlu

Kredo 2021.- 10 mart.- S.16.